# Azərbaycan ədəbiyyatı yeni yaradıcılıq impulsu aldı



**Şuşanın, ümumən dağlı-aranlı Qarabağın həm bir neçə onillik işğaldan, həm də bir neçə yüzillik erməni iddialarından xilas olması üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin bütün dünyanın gözü qarşısında nümayiş etdirdiyi milli iradəyə minnətdarıq. Və bizim Şuşaya səfərimizin, keçirdiyimiz son dərəcə xoşbəxt günlərin müəllifi də məhz bu iradə idi.**

Molla Pənah Vaqif Poeziya Günlərinə yeni həyat verilməsi, bu günlər çərçivəsində Qarabağın dünəni, bu günü və sabahı barədə məhz ədəbi müstəvidə söhbət açılması bir daha göstərir ki, dövlətimiz xalqımızın mənəvi yüksəlişində ədəbiyyata böyük əhəmiyyət verməklə Ulu Öndər Heydər Əliyevin hər cəhətdən əsaslı mədəniyyət siyasətini inamla davam etdirir.

Əlbəttə, Qarabağda ədəbi mühit Vaqiflə başlanmır, ancaq Vaqif realizm adlandırdığımız ədəbi cərəyanın təməllərini məhz Qarabağda, Şuşada atmış, bütövlükdə Qarabağ ədəbi mühitini Azərbaycan ədəbiyyatının ön sıralarına çıxarmışdır. Bunu da etiraf etmək lazımdır ki, ədəbiyyatda Vaqif dövrü ideya- estetik xarakterinə görə güclü bir intibah hadisəsi idi. Çox keçmədi ki, Qarabağ Azərbaycan mədəniyyətinə Zakir, Natəvan kimi böyük şairlərlə yanaşı, milli şüurun inkişafına ciddi təsir göstərmiş “Qarabağnamə”lər bəxş etdi. Həmin əsərlərin hər birində Qarabağın tarixi o qədər müfəssəl təsvir olunur, olub- bitmişlərin dərinliklərinə o qədər təfərrüatı ilə varılır ki, burada erməniyə yer olmamasının özü artıq bu mənfur qəbilənin Qarabağa ərazi iddialarının əsassızlığını təsdiq edir.

Biz Şuşaya yeni salınmış “Zəfər yolu” ilə gəldik, Vaqifin təmir olunmuş məqbərəsi önündə Müzəffər Dövlət Başçımızın dərin məzmunlu (və qürurverici) açılış nitqini, ədəbiyyatımızın canlı klassikləri Anarın, Nəriman Həsənzadənin, Elçinin çıxışlarını dinlədik... Elə bilirəm ki, bu gün Vaqif Poeziya Günlərində iştirak edən üç nəsil yazıçı nümayəndələrinin şəxsində Azərbaycan ədəbiyyatı yeni bir yaradıcılıq impulsu aldı. Neçə illərdi ki, ədəbiyyatımızın Şuşa nəfəsi çatışmırdı...

XXI əsr Azərbaycan mədəniyyətinin yüksəlişinə öndərlik edən, bugünkü unudulmaz günlərimizin də təşkilatçısı olan Heydər Əliyev Fonduna, onun rəhbəri Mehriban xanım Əliyevaya da təşəkkürlərimiz, əlbəttə, tükənməzdir. Şuşanın hələ məskunlaşmadığı, düşməndən azad edilmiş şəhərin yaşayış infrastrukturunun bərpa olunmasına yenicə başlandığı bir şəraitdə Vaqif Poeziya Günləri iştirakçılarına bu qədər gözəl şəraitin təmini böyük məmnunluq doğurur, dövlətimizin iqtisadi qüdrətini bir daha göstərir.

***Nizami CƏFƏROV,***
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2021.- 5 sentyabr.- S. 3.